Sevinc QASIMOVA
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
E-mail: sevinccqasimova@gmail.com
ORCID ID: 0009-0004-4770-8791
https://doi.org/10.59849/2309-7949.2026.2.31

"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA ALLAH-TANRI FƏLSƏFİ PARALELİZMİ

Açar sözlər: "Kitabi-Dədə Qorqud", Dədə Qorqud, Allah, Tanrı, fəlsəfə, mifik fəlsəfə

АННОТАЦИЯ
ФИЛОСОФСКИЙ ПАРАЛЛЕЛИЗМ АЛЛАХ–ТАНРЫ В ЭПОСЕ «КНИГИ МОЕГО ДЕДА КОРКУДА»

Великий памятник огузских тюрков «Книга моего Деда Коркуда» является источником богатых философских идей. В этом памятнике опыт наших огузских предков об обществе, природе и времени в основном отражён в пословицах. Это не случайно, а связано с особым местом и ролью культа отца в древнем огузском обществе. В современном понимании отец является одним из основных членов семьи, однако в древности он был не только главой семьи, но и считался самым уважаемым членом общества. Роль отцов в обществе обусловливалась их связью с культом предков.

Огуз каган, создатель огузского народа, является первопредком, первым человеком. Как известно из существующих эпических источников и исследований, Огуз был не обычным человеком: он родился от Ай-кагана, женился на девушке, рождённой от неба, а также на девушках, рождённых от земли и воды; члены его семьи (сыновья) олицетворяли всю природу (Гюн-хан, Ай-хан, Улдуз-хан, Гёк-хан, Дениз-хан, Даг-хан), а весь огузский народ произошёл от этой семьи. Огуз как отец является создателем народа, и в этом смысле все отцы в истории тюркской культуры выполняли творческую функцию.

В эпосе «Улу Хан Ата Битиги» Улу Хан Ата выступает как великий предок кипчаков и создатель их мира. У казахов личности, известные под именами Темир баба, Бекет ата, Шопан ата, Баба Шашты, Дихан баба, Гамбар баба, Коркыт, Кыдыр ата и другие, являются святыми, обладающими сакральной созидательной силой. В этом смысле Dədə Qorqud также является сакральным отцом-творцом. Поэтому его изречения во всех случаях представляют собой философские высказывания, служащие социальному, политическому, культурному и духовному порядку огузского мира. С этой точки зрения каждое изречение, данное во вступлении к двенадцати сказаниям эпоса «Книги моего Деда Коркуда», является философским высказыванием, относящимся к огузскому миру. В основе этих изречений лежит философский параллелизм Аллах–Танры.

Согласно основному выводу исследования, в основе огузской философии, переплетённой с исламской религией, лежит гуманизм. Человек должен любить Творца ради созданного Им. Аллах наказывает тех, кто выходит за рамки философских образцов этой любви. Таким образом, философия Аллах–Танры в эпосе Kitabi-Dədə Qorqud представляет собой философию любви, основанную на высоком гуманизме, и призывает людей ценить и беречь мир, природу, животный мир и время, в котором они живут.

Ключевые слова: Книга моего Деда Коркуда, Деде Коркуд, Аллах, Танры, философия, мифическая философия.

ABSTRACT
THE ALLAH-TANRI PHILOSOPHICAL PARALLELISM IN THE EPIC "THE BOOK OF DEDE KORKUT"

The great monument of the Oghuz Turks, *"The Book of Dede Korkut"*, is a rich source of philosophical thought. In this monument, the experience of our Oghuz ancestors regarding society, nature, and time is mainly reflected in proverbs. This is not accidental; it is connected with the special place and role of the father cult in ancient Oghuz society. In modern thinking, the father is considered one of the main members of the family, but in ancient times he was not merely the head of the family—he was also regarded as the most respected member of society. The role of fathers in society was conditioned by their connection to the cult of ancestors.

Oghuz Khagan, the creator of the Oghuz people, is the first ancestor and the first human. As known from existing epics and research about him, Oghuz was not an ordinary person; he was born of Ay Khagan, married a girl born from the sky and girls born from earth and water, and his family members (his sons) represented all of nature (Gun Khan, Ay Khan, Yildiz Khan, Gok Khan, Deniz Khan, Dag Khan). The entire Oghuz people originated from this family. As a father, Oghuz is the creator of the people, and in this sense all fathers in the history of Turkish cultural thought have borne a creative function.

In the epic "Ulu Khan Ata Bitiği," Ulu Khan Ata is the great ancestor of the Kipchaks and the creator of their world. Among the Kazakhs, figures known as Temir Baba, Beket Ata, Shopan Ata, Baba Shashti, Dikhan Baba, Ganbar Baba, Korkut, Khidir Ata, and other figures bearing the names "ata" (father) and "baba" (grandfather) are saints possessing sacred creative power. In this respect, Korkut Ata is also a creative father endowed with sacred power. Therefore, his sayings always serve the social, political, cultural, and spiritual order of the Oghuz world as philosophical expressions. From this perspective, each of the statements given in the introduction of the twelve-chapter epic *"The Book of Dede Korkut"* constitutes philosophical expressions pertaining to the Oghuz world. At the core of these expressions lies the philosophical parallelism of Allah–Tanri.

According to the main conclusion of the research, the foundation of Oghuz philosophy, which merged and intertwined with Islam, is humanism. A person should love the Creator for the sake of His creations. Allah punishes those who go beyond the philosophical models of this love. Thus, the Allah–Tanri philosophy of *"The Book of Dede Korkut"* is a philosophy of love based on high humanism, calling people to value and protect the world, nature, animals, and the time in which they live.

Keywords: *"The Book of Dede Korkut"*, Korkut Ata, Dede Korkut, Allah, Tanri, philosophy, mythic philosophy.

Oğuz türklərinin ulu abidəsi "Kitabi-Dədə Qorqud" zəngin fəlsəfi fikirlər qaynağıdır. Bu abidədə oğuz babalarımızın cəmiyyət, təbiət və zaman haqqında olan təcrübəsi əsasən atalar sözlərində öz əksini tapmışdır. Bu da təsadüfi olmayıb, qədim Oğuz cəmiyyətində ata kultunun xüsusi yeri və rolunun olması ilə əlaqədardır. Müasir düşüncəmizdə ailənin əsas üzvlərindən biri olan ata qədim dövrlərdə sadəcə ailənin başçısı olmayıb, həm də cəmiyyətin ən hörmətli üzvü hesab olunurdu. Ataların cəmiyyətdəki rolu onların əcdad kultu ilə bağlılığı ilə şərtlənir. Oğuz xalqının yaradıcısı olan Oğuz kağan ilk əcdad, ilk insandır. Onun haqqında mövcud olan dastanlardan və tədqiqatlardan məlum olduğu kimi, Oğuz adi bir insan olmamış, Ay kağandan doğulmuş, göydən doğulan qızla və yer-sudan doğulan qızlarla evlənmiş, ailə üzvləri (oğlanları) bütün təbiəti təmsil etmiş (Gün xan, Ay xan, Ulduz xan, Göy xan, Dəniz xan, Dağ xan), bütün Oğuz xalqı bu ailədən törəyərək yaranmışdır (bax: 13; 14; 15; 16; 17; 28; 29; 1; 3; 4; 6; 7; 10; 12; 18; 20; 21; 22; 23; 24 25). Oğuz bir ata kimi xalqın yaradıcısıdır və bu mənada türk mədəniyyət tarixindəki bütün atalar yaradıcı vəzifəsini daşımışlar. "Ulu Xan Ata Bi-

tiyi" dastanında Ulu Xan Ata qıpçaqların ulu əcdadı və onların dünyasının yaradıcısıdır (19). Qazaxlarda Temir baba, Beket ata, Şopan ata, Baba Şaştı, Dixan baba, Qənbər baba, Korkut, Kıdır ata və digər ata və baba adları ilə tanınan şəxslər sakral yaradıcı gücə malik övliyalardır (31, s. 396-401; 30, s. 90; 103; 135; 159; 168). Bu baxımdan, Qorqud ata da sakral gücə malik yaradıcı atadır. Ona görə də onun söylədiyi sözlər bütün hallarda Oğuz dünyasının sosial, siyasi, mədəni və mənəvi nizamına xidmət edən fəlsəfi deyimlərdir. Bu cəhətdən Qorqud atanın on iki boydan ibarət olan "Kitabi-Dədə Qorqud" dastanının müqəddiməsində verilmiş deyimlərinin hər biri Oğuz dünyasına aid fəlsəfi deyimlərdir. Bu deyimlərin mayasında Allah-Tanrı fəlsəfəsi paralelizmi durur.

Dastanın müqəddiməsinin zəngin fəlsəfi fikir qaynağı olması Ulu Öndər Heydər Əliyevin sözlərində aydın şəkildə mənalandırılmışdır: ""Kitabi-Dədə Qorqud" bizim milli estetikamızın mötəbər qaynağı olaraq mənəvi və estetik dəyərlərin vəhdətini özündə əks etdirir. Gözəllik və eybəcərlik, ülvilik və alçaqlıq, komiklik və faciəvilik, məhəbbət və nifrətlə bağlı olan fikirlər, bizim əcdadlarımızın estetik duyumu lakonik ədəbi formalarda eposun müxtəlif boylarında ifadə olunur. Gözəllik və hikmətin, gözəllik və qeyrətin, gözəllik və sədaqətin qırılmaz daxili harmoniyası da "Kitabi-Dədə Qorqud"a xas olan estetik və etik kateqoriyaların mahiyyətini açıqlayır" (5, s. 8).

Müdrik şəxsiyyət, dövlətçilik fəlsəfəsini dərindən bilən H.Əliyevin bu fikrində, əslində, "Dədə Qorqud" dastanındakı fəlsəfənin mahiyyəti, təyinatı, tipi, yəni necə bir fəlsəfə olması ifadə olunmuşdur. Onun fikrindən aydın olur ki, dastanda öz əksini tapmış fəlsəfə bütün hallarda estetik-etik fəlsəfədir. Bunu Ulu Öndərin fikrini təhlil etməklə daha aydın anlamaq olar. Bu fikrə dərindən nəzər saldıqda H.Əliyevin dastanda aşağıdakı mənaları müşahidə etdiyini görürük:

Birincisi, "Kitabi-Dədə Qorqud" Oğuz xalqının varislərindən bir kimi, Azərbaycan xalqının gözəllik haqqında estetik düşüncələrinin – milli estetikamızın ən əsas qaynağıdır.

İkincisi, dastanda mənəvi və estetik dəyərlər vəhdət təşkil edir. Mənəviyyatın və milli gözəlliyin vəhdət məqamı dəyərlərin birləşməsindən yaranan fəlsəfi sistem deməkdir.

Üçüncüsü, "Kitabi-Dədə Qorqud" eposundakı fəlsəfə binar struktura malikdir: gözəllik və eybəcərlik, ülvilik və alçaqlıq, komiklik və faciəvilik, məhəbbət və nifrət.

Dördüncüsü, dastanın estetik fəlsəfəsi bədii formalarda təcəssüm olunmuşdur.

Beşincisi, eposda gözəllik və fəlsəfə, yəni H.Əliyevin sözləri ilə desək, "gözəllik və hikmət" harmoniya təşkil edir.

Altıncısı, "Kitabi-Dədə Qorqud"un fəlsəfəsi estetik və etik kateqoriyalarda təcəssüm olunur.

Fəlsəfə, bildiyimiz kimi, ümumiləşdirmədir. Bu elm digər elmlərin fövqündə durur və onlara aid nəticələri ümumiləşdirməklə gerçəklik və zaman haqqında ən ümumiləşmiş qanunları ifadə edir. Prof. Ramazan Qafarlının tədqiqatlarından (bax. 13; 14; 15; 16; 17) aydın olur ki, "Kitabi-Dədə Qorqud"un fəlsəfəsi kamil, bitkin, bütöv bir düşüncə sistemi olub, ana platformasını "Oğuz kağan" dastanından götürür. Bu cəhətdən, alimə görə, oğuzların yaranış fəlsəfəsi təbiət, cəmiyyət və za-

manın kəmiyyət harmoniyasına əsaslanır. Yəni alimə görə, Oğuz eposunda, o cümlədən onun bariz nümunəsi olan "Dədə Qorqud" oğuznaməsində öz əksini tapmış yaradılış fəlsəfəsinin gizli qatında riyazi-fəlsəfi qanunauyğunluq modeli durur.

R.Qafarlı yazır: "Qədim oğuz-türk mifologiyasında dünyanın say sistemi ilə yaranan dolğun, mükəmməl və tam modelinə rast gəlirik:

Vahid başqa *biri* (Oğuzu) dünyaya gətirir, ondan *iki üçlük* (toplusu *altı* edir**)** doğulur.

Birinci üçlük barədə mətndə deyilir ki, göydən şüa düşür. Oğuz görür ki, Günəşdən işıqlı, Aydan parlaq işığın arasında gözəl bir qız oturmuşdur.

Başı qızıl qütb ulduzlu bu qızdan onun *üç oğlu* olur: Gün, Ay və Ulduz.

Üç qardaşın nəsli sonralar Bozoxlar – pozuxlar adı ilə tanınır.

İkinci üçlüklə bağlı mifdə göstərilir ki, Oğuz göl ortasında bir ağac görür. Ağacın oyuğunda gözəl bir qız oturmuşdu.

Gözləri göydən də göy, saçları dalğa kimi, dişləri inci tək olan bu qızdan da Oğuzun üç oğlu dünyaya gəlir: Göy, Dağ, Dəniz.

Bu üç qardaşdan törəyən nəsillər isə Üçoxlar adını daşıyır.

Azərbaycan türklərinin söy kökündə həm Bozox, həm də Üçox tayfaları iştirak edir.

Altılardan isə *altı dördlük* meydana gəlir:

BOZOXLAR (pozuxlar):

birinci dördlük Gün xanın övladlarıdır: Kayı, Bayat, Alkaravlı (Alka-evli), Qara Avul (Qara-evli);

ikinci dördlük Ay xanın övladlarıdır: Yazır, Dogər, Dodurğa (Durdurqa), Yaparlı (Cayurlu);

üçüncü dördlük Ulduz xanın övladlarıdır: Avşar (Əfşar), Kızık, Bəgdili, Karkın (Bayat, Əfşar, Bəgdili sonralar əsasən Azərbaycan türklərinin içərisində ərimişdir);

ÜÇOXLAR: *dördüncü dördlük* Göy xanın övladlarıdır: Bayandur, Beçenə (Peçeneq), Çavuldur, Çəpəni;

beşinci dördlük Dağ xanın övladlarıdır: Salur, Eymur, Alayurtlu, Ürəgür;

altıncı dördlük Dəniz xanın övladlarıdır: İqdır, Bəgdüz, Yıva, Kınık. Bu boylardan Bayandur, Beçənə, Çavuldur, Salur, Alayurtlu, Bəgdüz Azərbaycan türklərini formalaşdıran tayfalardandır" (15, s. 35).

Seyfəddin Rzasoy belə hesab edir ki, prof. Ramazan Qafarlı Oğuz dünya modelində ilkin kosmoqonik yaradılışın ritmi vahidinin "33" olduğunu aşkarlamışdır. O göstərir ki, ilkin yaradılış silsiləsi "33" ilə tamamlanır: **1 ata** (Oğuz) **+ 2 ana** (Oğuzun göyü və yeri təmsil edən xanımları) **+ 6 oğul** (Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz xanlar) **+ 24 nəvə** (hər oğuldan törəyən 4 nəvənin təmsil etdiyi 24 oğuz tayfası) **= "33"** vahidi (14, s. 386-387). Demək, "33"-lə Oğuz kosmoqonik yaradılışının bir silsiləsi başa çatır. Maraqlıdır ki, Oğuz elinin bütün sonrakı kosmoqonik böyümə ritmi "33" vahidinə əsaslanır. Oğuzların sayı nə qədər artırsa-artsın onlar özlərini sosial-siyasi struktur baxımından 24-lük tayfa sistemi əsasında düzürlər. Bu halda nəsildən-nəslə (silsilədən-silsiləyə, dövrədən-dövrəyə, ritmdən-ritmə) keçidlər zamanı "33" vahidi dəyişməz qalır: 24 (əbədi tayfa) + 6 (əbədi/sakral ata) + 2 (əbədi/sakral ana) + 1 (əbədi/sakral əcdad/baba). Buradan çıxan əsas nəticə ondan

ibarətdir ki, "33" bütün hallarda kosmik məkan daxilində mövcudluğun kəmiyyət həddi/ritmidir. Xaosa adlamaq istəyən subyektin bu ritm/həddə çataraq onu aşması Xaosun kəmiyyət ritminə daxil olması deməkdir (26, s. 248-249).

Qeyd olundu ki, dastanda Qorqud atanın dilindən deyilmiş kəlamlar fəlsəfi ümumiləşdirmələrdir. Onlara diqqət etdikdə görürük, burada Oğuz dünyası adlanan etnik-mədəni sistem bütövlükdə əhatə olunmuşdur və bu mənada hər bir deyim Oğuz fəlsəfi dünya modelinin konkret bir məna qatını ortaya qoyur.

Dastanın müqəddiməsində "Dədə Qorqut soylamış" ad altında dörd dəfə, daha doğrusu, dörd qrup deyimlər verilmişdir. Maraqlı və qanunauyğundur ki, ilk deyimlər Allah-Tənrinin (Tanrının) adı ilə başlayır:

Dədə Qorqud soylamış:

Allah-Allah diməyincə işlər oñmaz.
Qadir Təñri verməyincə ər bayımaz (11, s. 31).

Əslində, hər iki deyimin mənası eynidir, yaxud başqa cür desək eyni bir Oğuz fəlsəfi qanunauyğunluğu iki sinonim cərgəsi yaratmışdır:

Allahı çağırana heç bir iş başa çatmaz, əmələ gəlməz. Bütün işlərin həyata keçməsinin hökmü Allahın əlindədir. Xeyir-bərəkəti verən, insanın qarşısına uğur çıxaran, onun gördüyü işi başa çatdırmaq üçün insana fürsət, güc və bərəkət verən Allahdır.

İkinci deyimdə eyni məna Tanrıya, daha dəqiq desək, Qadir Tanrıya, yəni güc-qüvvətli və qüdrətli Tanrıya aid edilir. Bir insanın varlanması, mal-mülk, vardövlət sahibi olması Tanrıdan asılıdır: Tanrı verməsə – insan varlana bilməz.

Göründüyü kimi, eyni məna iki obraza – Allaha və Tanrıya aid edilmişdir və oğuzların bu ulu kitabı – "Kitabi-Dədə Qorqud" Allahın və Tanrının adları ilə başlayır. Burada müəyyən müəmma ortaya çıxır: dastan Allah və Tanrını eyni varlıq kimi təqdim edir, ya fərqli?

Bizə məlumdur ki, Allah Uca yaradanın ərəb dilindəki adıdır. Oğuzlar da Tanrı uca yaradıcı məqamındadır. Təbii ki, oğuzlar İslam dinini qəbul edənə qədər Allah adını tanımırdılar. Lakin İslam dinini qəbul etdikdən sonra Allahı tanıdılar və onun birliyinə iman gətirdilər. Çox maraqlıdır ki, bu proses dastanın "Dəli Domrul" boyunda onun fəlsəfi məqamları baxımından da öz əksini tapmışdır.

Davranışları baxımından, həqiqətən, dəli təsiri bağışlayan Dəli Domrulun Allahın varlığından xəbəri yoxdur. O, ölüm faktı ilə qarşılaşanda çox sadəlövhcəsinə soruşur: "Mərə, yigidinizi kim öldürdi?" Ayıtdılar: "Vallah, bəg yigit, Allah təaladan buyruq oldı. Al qanatlu Əzrayil ol yigidin canın aldı" (11, s. 79).

Beləliklə, Dəli Domrulun nə Allahın varlığından, nə də onun ölüm mələyi olan Əzrayılın varlığından xəbəri yoxdur. Ona görə də, gedib Əzrayılla vuruşub, ölən cavanın canını (ruhunu) geri qaytarmaq istəyir.

Əlbəttə, Dəli Domrulun Allahdan xəbəri olmaması oğuzların İslam dinini qəbul etməsindən qabaqkı təsəvvürləri əks etdirir. Çünki həmin dövrdə oğuzlar Allahı deyil, Tanrını tanıyırdılar.

Dastanda deyilir: "Həq təalaya Domrulun sözi xoş gəlmədi: "Baq, baq, mərə dəli qavat. Mənim birligim bilməz, yarligümə şükr qılmaz. Mənim ulu dərgahımda gəzə, mənlik eyləyə?" – dedi. Əzrayilə buyuruq eylədi kim, ya Əzrayil, var, ol dəxi dəli qavatın gözinə görüngil, bənizini sarartğıl! – dedi; canını xırlatğıl, alğıl,

– dedi" (11, s. 79).

Domrul Əzrayıla məğlub olandan sonra Allahı tanıyır və ona bağışlanmaq üçün yalvarır və iman gətirdiyi üçün bağışlanır:

Yucalardan yucasan,
Kimsə bilməz necəsən.
Görklü Tənri,
Necə cahillər səni
gögdə arar, yerdə istər.
Sən xud möminlər könlindəsən.
Daim duran cabbar Təñri,
Baqi qalan səttar Təñri,
Mənim canımı alur olsan, sən alğıl!
Əzrayilə almağa qomağıl! – dedi.

Allah təalaya Dəli Domrulın burada sözi xoş gəldi. Əzrayilə nida eylədi kim, çün dəli qavat mənim birligim bildi, birligümə şükr qıldı, ya Əzrayil, Dəli Domrul can yerinə can bulsun, onuñ canı azad olsun! – dedi" (11, s. 81).

Bütün bunlardan aydın olur ki, oğuzlar İslam dinini qəbul etdikdən sonra əsrlər, minilliklər boyunca tanıdıqları Tanrını unutmamış, onun adını paralel şəkildə "Dədə Qorqud" dastanında da yaşatmağa çalışmışlar.

Cəlal Bəydili (Məmmədov) yazır ki, "Kitab-Dədə Qorqud" boylarında haqqında danışılan oğuzlar dini etiqad şəkli kimi müsəlmanlığı qəbul etməklərinə baxmayaraq, şamanizmlə qarışmış Göy – Tanrı inanışı ilə iç-içə bir din həyatı yaşayırdılar" (2, s. 318).

Tanrı türk düşüncəsinin ayrılmaz obrazıdır və onun Mahmud Kaşqarlının divanında rast gəlinən mənaları bu obrazı daha dərindən anlamağa imkan verir. Aynur Fərəcova yazır ki, ""Divan"da Tenğri adına 40-dan yuxarı yerdə rast gəlinir. Bunlardan biri yalnız "Tenğri" isminə verilmiş izahdır. Qalan halların hamısında Tenğri adı bu və ya digər nümunənin içərisində işlənmişdir. Qeyd edək ki, elə bu cəhət, yəni Tenğri adının müxtəlif feillərlə birgə işlənməsi bizə bu obrazın teoqonik semantikasını araşdırmağa, onun türk epik-mifoloji dünya modelində yerini və funksiyalarını öyrənməyə geniş imkanlar açır" (8, s. 61).

Qeyd edək ki, Mahmud Kaşqarlının "Divan"da bu sözə verdiyi izah maraqlıdır: "Yerə batası kafirlər göyə Tenqri deyirlər. Yenə bu adamlar böyük bir dağ, böyük bir ağac kimi gözlərinə böyük görünən hər şeyə Tenqri deyirlər. Bu üzdən bu kimi şeylərə səcdə edirlər" (8, s. 61).

Yəni türklərdə Tanrı sözü ilə iki məna ifadə edilmişdir:

1. Göy aləmi;
2. Bütün nəhəng təbiət obyektləri.

İlk baxışdan da göründüyü kimi, İslam dinindəki Allah adı ilə türklərdəki Tanrı adının mənaları bir-biri ilə uyuşmur. Lakin türklərin ən uca yaradıcı varlıqları Tanrı idi və ondan ucasını, qüdrətlisini tanımırdılar. Elə buna görə də özlərinin Tanrısını Allahla yanaşı qoymuş, eyniləşdirməyə çalışmışlar. "Dədə Qorqud" dastanında eyni varlığın adının gah Tanrı, gah da Allah adlandırılması bunu göstərir. Yəni türklər və o cümlədən oğuz türkləri öz Tanrını unuda bilməmiş, onun adını Allah adı eyniləşdirməklə əslində öz dini etnik-dini kimliklərini yaşatmağa

çalışmışlar.

Əlbəttə, türklərin Tanrısı ilə Allah qarşısında üst-üstə düşən məqamlar da çoxdur. Belə olmasa idi, türklər Allah adını asanlıqla qəbul etməzdilər. Məhəmməd Məmmədli yazır ki, "türklərdə ictimai həyatın nizamı Tanrının "dünya nizamının" yaradıcısı inamından doğmuşdur. Qədim türklər Tanrının yenilməz gücünə inanır və öz yaradılışlarını Göy və Yerin vəhdətini təcəssüm etdirən Göy Tanrı haqqında dini düşüncə ilə əlaqələndirirdilər. "Tanrı" sözü qədim türk dilində "Tenqri" – "görünən göyü" və "Allahı" mənasında olan ilahi başlanğıc formasında idi" (32, s. 87).

Oğuzlarda Tanrı-Allah paralelizmi ilə bağlı çox maraqlı fakta Oğuz epik ənənəsinə aid olan "Kitabi-Türkman lisani" oğuznaməsində rast gəlirik. Həmin oğuznamədə Salur Qazanın yeddi başlı əjdaha ilə savaşmasından bəhs edən bir hekayət vardır. Orada nəql olunur ki, Salur Qazan əjdaha ilə savaşa girir, lakin ona gücü çatmır. Əjdaha onu udarkən Salur Qazan Tanrıya yalvarır:

Ya götürdügün gögə yetürən görklü Tarı!
Ya urdugüni ulatmayan ulu Tarı!
Çoq kimsələr səni gögdə istər.
Möminlərün könlindəsən.
Sadiqlərin dilində sən (9, s. 56).

Buradan göründüyü kimi, Tanrı dar ayaqda onlara əl qaldırıb dua edən insanları darda qoymayan uca bir varlıqdır. O, ucaltmaq istədiyi insanlara var-dövlət, ucalıq, şan-şöhrət verir, onların məqamını göylərə ucaldır. Qəzəb etdiyi insanlara isə cəza versə də, həm də rəhm edir. Bunu biz "Dəli Domrul" boyunda gördük. Allah ona asi olan Domrulu günahını boynuna aldığı və iman gətirdiyi üçün bağışladı.

Qazanın söylədiyi yalvarış nəğməsində bir maraqlı məqam var. O deyir:

Allah Tarı, sana bir deyənün ağzın öpim,
İki deyənün ağzın çarpım (9, s. 57).

Qazanın sözlərindən məlum olur ki, İslam dinini qəbul etmiş oğuzlar Tanrı ilə Allahı eyniləşdirmiş və onlar arasında fərq görməyə çox pis baxılmış, hətta cəza verilmişdir. S.Rzasoyun yazdığı kimi: "Oğuz//Türkmanlar İslam dinini qəbul etdikdən sonra Allah və Tanrını eyni bir varlıq hesab etmək məcburi rəsmi normaya çevrilmiş, onları fərqləndirənlər, yəni iki ayrı varlıq hesab edənlər, Qazanın statusunu nəzərə alsaq, dövlət səviyyəsində cəzalandırılmışdır (27, s. 90).

"Dədə Qorqud" dastanının fəlsəfi düşüncə sistemində Allah-Tanrı insan taleyinin sahibidir. Hər şey əvvəlcədən onun tərəfindən müəyyənləşdirilmişdir:

Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə irməyincə kimsə olməz.
Ölən adam dirilməz.
Çıxan can gerü gəlməz.
Bir yigidin qara dağ yumrısınca malı olsa,
yığar-dərər, tələb eylər,
nəsibindən artuğın yiyə bilməz.
Ulaşuban sular daşsa, təniz dolmaz.
Təkəbbürlik eyləyəni Təñri sevməz.
Könlin yuca tutan ərdə dövlət olmaz (11, s. 31).

Deyimlərin fəlsəfi mənalarına görə:

Hər bir insanın taleyi əvvəlcədən Allah-Tanrı tərəfindən yazılmışdır. İnsanın başına nə hadisə gəlirsə-gəlsin, bu Allah-Tanrının iradəsi ilə baş verir. Yəni Oğuz fəlsəfəsinə görə ilahi taledən qaçmaq mümkün deyildir.

Nə baş verirsə-versin, insanın ölümü ilahi əcəllə baş verir. Əcəl burada ilahi əmr, yazı mənasındadır. İnsana ömrü verən Allahdır və ölüm bütün hallarda onun iradəsi ilə gerçəkləşir.

Oğuz fəlsəfəsi elan edir ki, "Ölən adam dirilməz. // Çıxan can gerü gəlməz". Bu fəlsəfə oğuzların İslamdan qabaqkı tanrıçılıq-şamanizm fəlsəfəsinə tamamilə ziddir. Şamanlıqda şamanlar qamlama edib, ruhən o biri dünyaya adlayır, şər ruhların oğurladığı canı//ruhu geri qaytara bilirlər.

İnsanın bu dünyadakı həyatı ilahi qismətə bağlıdır. Heç kəs Allahın yazdığı qismətdən artıq heç nə əldə edə bilməz.

İnsan nə qədər var-dövlət qazansa da, Allah ona bərəkət verməyincə, varlı ola bilməz.

Oğuz fəlsəfəsinə görə, "Təkəbbürlik eyləyəni Təñri sevməz" və bu səbəbdən "Könlin yuca tutan ərdə dövlət olmaz".

Buradan aydın olur ki, İslam dini ilə qarışıb-qovuşan Oğuz fəlsəfəsinin əsasında humanizm durur. İnsan onu yaradanı yaratdıqlarına xatir sevməlidir. Allah bu sevginin fəlsəfə ülgülərindən kənara çıxanları cəzalandırır. Beləliklə, "Kitabi-Dədə Qorqud" dastanının Allah-Tanrı fəlsəfəsi yüksək humanizmə əsaslanan sevgi fəlsəfəsi olub, insanları dünyanı, təbiəti, heyvanatı və yaşadıqları zamanı dəyərləndirməyə və qorumağa çağırır.

ƏDƏBİYYAT

1. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.

2. Bəydili (Məmmədov), C. "Tanrı/Tənri" oçerki / Dədə Qorqud kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər nəşriyyat, 2004, s. 316-318

3. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi R.Şükürova. Bakı: Elm, 1998, 336 s.

4. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002, 146 s.

5. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası (məqalələr). Bakı: Öndər Nəşriyyat, 2004, s. 6-17

6. Əndəlib. Oğuznamə. Azərbaycan türkcəsinə çevirən, nəşrə hazırlayan və ön sözün müəllifi İ.Osmanlı. Bakı: Ulu, 2010, 76 s.

7. Əsgər, Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.

8. Fərəcova, A. Mahmud Kaşqarlının "Divanü Lugat-it Türk" əsərində Teñri/Tanrı adının teqonik məna baxımından təhlili // AMEA Nəsimi adına Dilçilik İnstitutu, "Mahmud Kaşğarlı" Beynəlxalq Elm, Mədəniyyət və Təhsil Konfransı (Divani Lügəti't-Türk - 950), – Bakı, 25-27 Mart, – 2022, – s. 60-67

9. Hacıyev (Şirvanelli) A. "Türkman kitabı": oxunuş və şərhlər // "Dədə Qorqud" jur., 2019, № 4, s. 3-60

10. İmaməliyev E.Q. Türk yaradiliş mifləri və Azərbaycan əfsanələri / Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2016, 153 s.

11. Kitabi-Dədə Qorqud. Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

12. Koroğlu, X. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 244 s.

13. Qafarlı R. Mif və nağıl (Epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 1999, 448 s.

14. Qafarlı R. Mif, əfsanə, nağıl və epos (şifahi epik ənənədə janrlararası əlaqə). Bakı: ADPU nəşri, 2002, 758 s.

15. Qafarov R. Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası) / Fil.elm.dok.al.dər.al.üç.təq.ed.dis. avtoreferatı. Bakı, 2010, 59 s.

16. Qafarlı, R. Mifologiya, 6 cilddə. Mifogenez: rekonstruksiya, struktur, poetika. Bakı: Elm və təhsil, c. 1, 2015, 454 s.

17. Qafarlı, R. Mifologiya, 6 cilddə. Ritual-mifoloji rekonstruksiya problemləri. Bakı: Elm və təhsil, c. 2, 2019, 432 s.

18. Mənzum Oğuznamə. Qədim türkcədən çevirən və ön sözün müəllifi İ.M.Osmanlı. Bakı: Ulu, 2005, 84 s.

19. Necati Demir. Türklerin En Eski Destanı Ulu Han Ata Bitiği. 3. Basım. İstanbul, Ötüken, 2017, 150 s.

20. Oğuznamələr. İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993, 94 s.

21. Rəşidəddin. Oğuznamə. Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2003, 108 s.

22. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 200 s.

23. Rzasoy S. Oğuz mifi və Oğuznamə eposu. Bakı: Səda, 2007, 181 s.

24. Rzasoy S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı: Nurlan, 2009, 363 s.

25. Rzasoy, S. Əbülqazi "Oğuznamə"sində mif və ritual. Bakı: Nurlan, 2013, 172 s.

26. Rzasoy S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi ("Əsli-Kərəm" və "Dədə Qorqud"). Bakı: Elm və təhsil, 2015, 436 səh.

27. Rzasoy S. "Kitabi-Türkman lisani" oğuznaməsinin transmediativ strukturu və ritual-mifoloji semantikası, Bakı, Elm və təhsil, 2020, 472 s.

28. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

29. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

30. Кондыбай С. Казахская мифология. Краткий словарь. Алматы, "Нурла Алем", 2005, 272 с.

31. Кондыбай С. Мифология предказахов Книга 4: Мифология предказахов. Пер. с каз. яз. З.Наурзбаевой. Алматы, "СаГа", 2011, 472 с.

32. Мамедли М. Парадигмы тюркского мифа. Киев: "Панорама", 2018, 192 с.